**Laval xəstəxanası** **Dəri daxili inyeksiya reaksiyası barədə məlumat**

Siz **tüberkülin testi** və yaxud **dəri daxili inyeksiya** etmək üzərəsiniz. Bu test sizin organizminizin vərəmə qarşı müdafiəsinin nə dərəcədə olub olmadığını, gizli vərəm infeksiyası ocaqlarının olub olmadığını, olduğu təqdirdə necə qarşısını almağı aşkar etmək üçündür.

**Doğru nəticələri almaq üçün riayət etməniz gərəkən bir necə qayda ilə sizi tanış edirik :**

*Mə'lumat üçün :*

Testin oxunuşu test edildikdən 72 saat sonra olduğundan iynənin vurulduğu yerin ölçüsündə ilk 48 saatda olan dəyişikliklərdən narahat olmayın. Bu testi həkim və ya tibb bacısı həyata keçirəcək.

*Riayət etməniz gərəkən qaydalar :*

- Sarığı iynədən təqribən 30 dəqiqə sonra ata bilərsiniz ;
- Iynənin vurulduğu yeri qaşımayın. Qaşındığı zaman isə soyuq su ilə yuyun ;
- Iynənin vurulduğu yerə hec bir maz, dərman vurmayın .

## *Vərəmin simptomları :*

*Ümumi simptomlar :*

- Gecə tərləmələri ;
- Qızdırma ;
- Ümumi halınızdakı dəyişikliklər :
    - Çəki itkisi ;
    - Iştahanın itməsi ;
    - Intensiv yorğunluq ;

*Ağ ciyərlərdəki simptomlar :*

- Qan ilə qarışıq öskürmə ;
- Tibbi müalicəyə baxmayaraq 2-3 həftədən bəri davam edən israrlı öskürək ;

- Döş qəfəsində ağrılar .

**Bu müxtəlif siptomlar vərəm xəstəliyinin göstəriciləri ola bilər.**

Əgər bu simptomların hər hansı birini aşkar etmisinizsə həkiminizlə və ya Vərəmə qarşı mübarizə mərkəzi ilə əlaqə saxlayın.

Kortikosteroid kimi immun sistemini zəiflədən uzun müddətli müalicələr ( gündə 10mq-dan çox) və yaxud nekroz şişi faktoruna (Enbrel, Remicade, Humira) qarşı müalicələr vərəm xəstəliyi riskini artirir.

*Mayenne Vərəmə qarşı mübarizə mərkəzi (VQMM)*

*Laval xəstəxanası*

*33 Haut Rocher küçəsi*

*53000 LAVAL*

*Telefon 02 43 66 50 55*

*clat53@chlaval.fr*